

Apostolos Panagiotou 8 fevral 1966-cı ildə anadan olmuşdur. O, ali təhsilini pedaqogika və ətraf mühit elmləri sahəsində almışdır. 1984 – 1988-ci illərdə Krit Universitetinin Pedaqogika fakültəsində təhsil alaraq Təhsil üzrə bakalavr dərəcəsinə yiyələnmişdir. 1989 – 1991-ci illərdə Krit Universitetinin Pedaqogika şöbəsində coğrafiyanın tədrisi ixtisası üzrə magistr təhsili almışdır. 1995 – 1999-cu illərdə isə London Universitetinin Təhsil İnstitutunda Ətraf Mühit Elmləri üzrə magistr dərəcəsini (Fəlsəfə istiqaməti) bitirmişdir. Əmək fəaliyyətinə 1994-cü ildə başlamışdır. 1994 – 1995-ci illərdə Yunanıstanın Rethimno bölgəsində yerləşən Akoumia İbtidai Təhsil Məktəbində ibtidai sinif müəllimi kimi çalışmışdır. 1995 – 1999-cu illərdə Londonda müxtəlif yunan məktəblərində yarımştat yunan dili müəllimi olmuşdur. 2002 – 2003-cü illərdə Afinada Aldoupolis Mədəniyyətlərarası İbtidai Təhsil Məktəbində, 2003 – 2004-cü illərdə isə Afina şəhərindəki 87 saylı Mədəniyyətlərarası İbtidai Təhsil Məktəbində ibtidai sinif müəllimi vəzifəsində çalışmışdır. Apostolos Panagiotou xarici dillər üzrə yüksək biliklərə malikdir. İngilis və ispan dillərini C2 səviyyəsində bilir.

Apostolos Panagiotou 2025-ci ildən Bakı Slavyan Universitetinin (BSU) Balkanşünaslıq kafedrasında xarici əvəzçi müəllim olaraq yunan dili üzrə dərslərin tədrisi ilə məşğuldur.